# TARİX VƏ ONUN PROBLEMLƏRİ

4



BAKI - 2015

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-074

**HİSTORY AND İTS PROBLEMS** **ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ**

**NƏZƏRİ, ELMİ, METODİK JURNAL**



4

***General Səməd bəy Mehmandarovun 160 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış***

**BAKI - 2015**

*Təsisçi və Baş Redaktor: tarix elmləri doktoru, professor Əsməd Muxtarova*

***Redaksiya şurası:***

*Akademik Bünyadov T.Ə.*
*Akademik Hacıyev İ.M.*
*Akademik Vəlixanlı N.*
*AMEA-nın müxbir üzvü Babayev İ.A.*
*AMEA-nın müxbir üzvü Əliyev V.*
*AMEA-nın müxbir üzvü Mahmudov Y.M.*
*AMEA-nın müxbir üzvü Nemətova M.S.*

***Redaksiya heyəti:***

*t.e.d.Axundova N.Ç.; t.e.d.Əliyev Q.Ə. (məsul katib);*
*p.e.d.Əlizadə H.; t.e.d.Darabadi P.Q.; t.e.d.Qasımlı M.C.;*
*t.e.d.Quliyeva N.; t.e.d.Fətəliyev M.B.; t.e.d.Hacıyev S.T.,*
*f.e.d.Hacıyev Z.; t.e.d.Həsənli C.P.; t.e.d.Həsənov Ə.M.;*
*t.e.d.Həsənova L.L.; t.e.d.İsgəndərov A.C.;*
*t.e.d.İsmayılov Q.S.; t.e.d.Məmmədov A.;*
*t.e.d.Məmmədov İ.M. (baş redaktorun müavini);*
*t.e.d.Məmmədov S.A.; t.e.d.Məmmədov A.Ə.;*
*f.e.d.Mikayılov N.M.; t.e.d.Sultanov O.; t.e.d.Zeynalov İ.X.*

**web-sayt: http://bsu.edu.az**

*Redaksiya ilə əlaqə:* **TarixVeOnunProblemleri@gmail.com**

**ISSN 1047**

**Ş.548 (1997)**
**Tarix və onun problemləri, 2007**
**©Lisenziya ser.AB - №22477**

## MÜNDƏRİCAT

### GENERAL SƏMƏD BƏY MEHMANDAROV – 160


| | | |
|---|---|---|
| SÜLEYMANOVA S.Y. | *Azərbaycan Cümhuriyyətinin ilk peşəkar hərbi naziri* | 5 |
| HÜSEYNOVA S.B. | *General S.Mehmandarov və rus hərb sənəti* | 10 |
| İSMAYİLOV F. SƏİDƏ ƏLİ QIZI | *Əliağa Şıxlinskinin "Xatirələrim" adlı memuarları XX əsrin əvvəllərində Rusiyanın və Azərbaycanın hərb tarixini öyrənmək üçün mənbə kimi* | 15 |
| QULİYEVA S.Z. | *I Dünya müharibəsi illərində Türk-müsəlmanlardan təşkil olunmuş "Vəhşi Diviziya" və Türkmən tekin süvari alayı* | 24 |


### QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR


| | | |
|---|---|---|
| ƏLİYEV H. | *Mifologiyadan tarixə keçid* | 34 |
| ИСМАЙЛОВА С.А. | *Роль эпосов в изучении истории культуры тюркоязычных народов* | 48 |
| AĞAYEV R. | *Ərəb xilafəti dövründə Azərbaycan əhalisinin hakim təbəqələrinin sosial zümrə tərkibi* | 56 |
| BAYRAMLI C. | *Azərbaycan milli dövlətçilik tarixində Babək Xürrəminin yeri və rolu barədə* | 65 |
| RƏHİMOVA S. | *Dərbənd XV əsrdə* | 74 |
| NƏCİYEV E. | *1514-cü il Təbriz sürgünləri* | 82 |
| ÖMƏROV A. | *XV-XVI əsrlərdə Azərbaycan Səfəvi dövlətinin beynəlxalq münasibətləri barədə* | 90 |
| BAYRAMOVA A. | *XVI əsrin 70-80-ci illərində Səfəvi – Venesiya münasibətləri (Vinçentso d'Alessandrenin gündəliyi üzrə)* | 95 |
| ƏSKƏROVA S. | *Çexlərin Osmanlı Türkiyəsi ilə tarixi əlaqələri* | 104 |


### YENİ DÖVR


| | | |
|---|---|---|
| İSMAYILOVA S. | *Çarizmin aqrar siyasəti və müsəlman ali silki (1801-1828-ci illər)* | 112 |
| ŞƏFİYEVA Ə. | *İranın ilk modern islahatçı hakimləri* | 117 |
| ДЖАЛИЛОВ А., ОСМАНЛЫ М. | *Некоторые вопросы влияния Бакинского промышленного района на экономику Елизаветпольской (Гянджинской) губернии в конце XIX – нач. XX века* | 124 |
| İSGƏNDƏROVA N. | *XX yüzilliyin əvvəllərində Azərbaycanda milli hərəkatın yaranması və təşkilatlanması* | 130 |
| BAXŞƏLİYEV F. | *Azərbaycan sahibkar kəndi yeni dövrün son mərhələsində* | 136 |


### MÜASİR DÖVR


| | | |
|---|---|---|
| ƏLƏKBƏROVA E. | *XX əsrin 20-ci illərinin əvvəllərində Qarabağ məsələsi* | 142 |
| HƏTƏMOV R. | *Azərbaycanın siyasi rəhbərliyinin hərbi çağırışçılar barəsində müzakirələri (1939-1940)* | 150 |
| QURBANOV R.O. | *Azərbaycanın neft sənayesində əməyin elmi təşkili və onun sosial nəticələri (XX əsrin 60-cı illəri)* | 156 |
| ASLANOV R. | *İran cəmiyyətində radikal və mötədil islamçılar (XX əsrin 80-ci illərində)* | 162 |
| HƏSƏNOV V. | *Azərbaycan Həmkarlar İttifaqlarının beynəlxalq əlaqələri (1993-2013-cü illər)* | 167 |
| ГУСЕЙНОВА И. | *Независимая Азербайджанская Республика и развитие мультикультурализма на Кавказе* | 174 |
| MAMMADOV S. | *The assistance of UNESCO development of independent means of mass communication in Azerbaijan* | 192 |
| RUİNTƏN S.F. | *Cənubi Qafqaz Rusiyanın geosiyasi maraqları dairəsində (problemin tarixi aspekti)* | 197 |
| SƏFƏROV P. | *XX əsrin 90-cı illərinin yarısında Rusiya, İran və Türkiyənin beynəlxalq münasibətlər sisteminə Azərbaycanın daxil olmasının iqtisadi-siyasi şərtləri* | 207 |
| ГУСЕЙНОВА А. | *Внешнеполитические связи государств Южного Кавказа с Россией на современном этапе* | 214 |
| АХУНДОВ Р. | *Развитие культуры, науки и здравоохранения в Азербайджанской Республике* | 225 |

| | | |
|---|---|---|
| İBRAHİMOVA P. | *Türkdilli Xəbər Agentlikləri vahid informasiya məkanında* | 230 |
| КАРАЕВА Л. | *Политика-правовые основы азербайджано-российских взаимоотношений* | 235 |
| SƏMƏDLİ Z. | *Diplomatiyada beynəlxalq danışıqların təsnifatlandırılması problemləri* | 241 |
| УСЕЙНОВА Г.Б. | *Республиканская крымско-татарская библиотека им.И.Гаспринского* | 247 |
| RÜSTƏMOV A.S., ƏFƏNDİYEVA X.B. | *Sosial nəzarət və normativ təsisatlar sistemi* | 253 |
| ALISGANDARLI J.S. | *Is the United States of America A Global Empire Today?* | 260 |
| QULİYEVA L. | *II Dünya müharibəsi sonrası Türkiyə xarici əlaqələri. Türkiyə-NATO, Avropa İttifaqı (Aİ) və Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT)* | 266 |
| CƏFƏROVA Ş., CƏFƏROV T. | *Erməni terrorizmi diaspor fəaliyyətinin istiqamətlərindən biri kimi* | 271 |
| HEYDƏROV Ə. | *Rusiya geosiyasətində Qafqazdan keçən enerji dəhlizinin əhəmiyyəti* | 280 |
| QƏHRƏMANOV E. | *Türkiyə-Rusiya münasibətlərinə erməni diaspor cəmiyyətlərinin təsiri* | 285 |
| TAĞIYEV T. | *Azərbaycan Respublikasının beynəlxalq antiterror koalisiyasında rolu* | 290 |
| ALİZADE N. | *Türkiye-İran dış ilişkilerinde enerji faktörü* | 297 |
| ƏLİYEV E. | *XX əsrin 60-80-ci illərində uşaqlara, ailələrə və qadınlara sosial dəstəyin ABŞ-ın sosial-iqtisadi siyasətində yeri* | 306 |
| SALMAN XODADADİ | *İran İslam Cümhuriyyətilə Azərbaycan Respublikası arasında ticarət əlaqələrinin bərqərarı və inkişaf dinamikasının əsas aspektləri* | 311 |
| LEYLA VAQİF QIZI | *Avropa Qonşuluq və Əməkdaşlıq mexanizmi və Azərbaycan* | 316 |
| MİRZƏYEV İ. | *Avropa İttifaqı və Azərbaycanın qarşılıqlı siyasi əlaqələrin inkişaf dinamikası* | 323 |
| ASLANLI G. | *Azərbaycan Respublikası vətəndaşlarının bədən tərbiyəsi və idmanla əhatə edilməsi sahəsində dövlət tədbirləri (2003-2013-cü illər)* | 329 |
| BAĞIRLI A. | *Azərbaycan qanunvericiliyinə əsasən aztəminatlı ailələrin sosial yardım alarkən keçdikləri mərhələlər* | 337 |
| ƏSƏDOVA N. | *Qloballaşma dövründə informasiya cəmiyyətinin bəzi aspektləri* | 342 |
| EYVAZLI E. | *Dağlıq Qarabağ münaqişəsi: Azərbaycan mətbuatının statistikası nə deyir?* | 348 |
| HÜSEYNLİ H. | *NATO-nun Kosovo əməliyyatı və Türkiyə* | 355 |


## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA


| | | |
|---|---|---|
| ALLAHVERDİYEVA F. | *Şaman türklərdə qurban adətləri* | 361 |


## MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, DEMOQRAFİYA


| | | |
|---|---|---|
| МУГАНЛИНСКИЙ Р. | *Проблема религиозного фактора сефевидо-османских отношений начала 16 в. в англоязычной историографии* | **367** |
| ИСМАИЛОВ У. | *Взаимоотношения государства Сефевидов с Османской империей и со странами Европы в советской историографии в XVI веке* | 372 |
| İBRAHİMOVA Ü. | *XVI yüzillikdə Səfəvi-Gürcü münasibətləri (gürcü mənbələrinə görə)* | 377 |
| İSLAMOVA Z. | *Jozef Pitton de Turnefortun "Səyahətnamə"si XVIII əsr Azərbaycan tarixinə dair mənbə kimi* | 383 |
| AŞUROVA G. | *XX əsr sonları – XXI əsrin əvvəllərində Balakən rayonunun əhalisinin təhsil üzrə bölgüsü və yerləşməsi* | 388 |


## METODİKA


| | | |
|---|---|---|
| MƏHƏRRƏMOV İ.B., QULİYEV R., ƏLİYEV E., İMAMOVA S. | *Azərbaycanda ilkin tayfa ittifaqları , qədim dövlətlər və erkən foedal cəmiyyəti* | 392 |

**ELNUR NƏCIYEV**
*AMEA-nın A.A.Bakıxanov*
*adına Tarix İnstitutunun doktorantı*
*elnurneciyev@gmail.com*

# 1514-CÜ İL TƏBRİZ SÜRGÜNLƏRİ

**Açar sözlər:** Səfəvilər, Osmanlılar, Təbriz, sürgün, sənətkar, tacir.
**Ключевые слова:** Сефевиды, Оттоманы, Тебриз, изгнание, ремесленник, торговец.
**Keywords**: Safavids, Ottomans, Tabriz, exile, artisan, merchant.

Səfəvilər dövləti 1501-ci ildə yaranışından 1736-cı ildə süqutuna kimi de-mək olar ki, qonşuları ilə hərb şəraitində olmuşdur. Bu müharibələrin hər biri Sə-fəvi əhalisinin taleyinə müəyyən qədər öz təsirini göstərmişdi. Xüsusilə də Osman-lılarla fasilələrlə bir əsrə yaxın davam edib 1639-cu il Qəsri-Şirin sülhü ilə başa çatan hərbi əməliyyatlar Səfəvilər dövlətinin iqtisadi həyatına daha ağır zərbələr vurmuş xeyli insan itkisinə, məcburi əhali yerdəyişmələrinə səbəb olmuşdur. Əha-linin öz yaşayış yerlərini tərk etmələri köçlər, sürgünlər formasında baş vermişdi. Köçün məcburi və zorakı forması olan sürgünlər Səfəvilər dövlətində istər Şah I Təhmasib (1524-1576), istərsə də Şah I Abbas (1587-1629) dövründə Osmanlılarla müharibə zamanı "yandırılmış torpaq siyasəti"nin tərkib hissəsi kimi tətbiq olun-muşdur. Osmanlıların hücum etdiyi yollar boyu əhali dövlətin içərilərinə doğru sürgün edilmiş, daşınmayan əmlakı isə həyat üçün zəruri olan bütün vasitələrlə birlikdə məhv edilmişdi. Lakin sürgünlər yalnız hücum edən tərəfi ərzaqsız və eh-tiyatsız buraxmaq məqsədi ilə həyata keçirilməmişdir. Sürgün həm də baş verən hər hansı bir müharibədə qalib tərəfin müraciət etdiyi ənənəvi üsul bir idi. Belə ki, Səfəvilərin 1514-cü il Çaldıran döyüşündə Osmanlılara məğlub olmasından sonra Təbriz əhalisinin müəyyən qismi Osmanlı imperiyasına sürgün edildi. Bu hadisə tarixdə 1514-cü il Təbriz sürgünləri adı ilə tanınır.

1386-cı ildə Əmir Teymur Təbrizi işğal etdikdən sonra şəhərin "sənətkarla-rından bu və ya digər sahədə məşhurlaşıb tanınanları" [2, 32] Səmərqəndə köçür-düyü kimi, Osmanlı Sultan I Səlim (1512-1520) də 1514-cü ildə 1700 sənətkar ai-ləsini İstanbula köçürmüşdü [1, 129]. Bu sürgünlə bağlı Heydər Çələbi ruznamə-sində yazır ki, Sultan Səlim tərəfindən "12 sentyabr 1514-cü ildə Xorasan padişahı Sultan Hüseyn Bayqara oğlu, Bədi-üz-zaman Mirzə ilə bərabər Təbrizin və Xora-sanın məşhur ustalarının və sənətkarlarının İstanbula göndərilməsi əmr olundu" [7, 81]. Heydər Çələbi köçürülənlərin Şah I İsmayıl tərəfindən Xorasandan Təbrizə köçürülən sənətkar ustadlar və digər varlı tacirlər, o cümlədən də başda Xorasan hökmdarının oğlu Bədi-üz-zaman Mirzə olmaqla nüfuzlu şəxslərin olmasını qeyd edirdi [7, 146]. Təbrizdən İstanbula köçürmə hadisəsi barədə Osmanlı salnaməçilə-rindən "Tac ü't-təvarix" əsərinin müəllifi Hoca Sadəddin də məlumat verir. O yazır ki, Sultan I Səlim "9 gündən artıq könül alıcı Təbriz torpaqlarında gözləməyib zə-fərlərə rəhbər olan ordusunu qışın soyuğundan qorumaq üçün geri dönmək qəra-rını aldı...digər tərəfdən də sənətsevər padşah bu ölkədə yaşayan sənət sahiblərin-dən və irəlidə gedən adlı-sanlı bəylərdən min nəfərə qədərini seçərək ailələri, mal və əşyaları ilə birlikdə İstanbula köçürtdü. Bu səfərdə uluğ bəylərindən birini də onları qoruyub aparmaq üçün təyin etdi. Onlara da səfər üçün nə lazımdırsa, at, qatır, eşşək, bütün ehtiyaclarını, ödəniş və yol xərclərini də ödətdirdi. Bunlar orada elə bir diqqət gördülər ki, bu qonaqlıqda keçmiş dostlarını, yurdlarını unutmaqla məğlub oldular" [8, 223-224]. Bir digər Osmanlı müəllifinin qələmindən çıxan "Anonim Tevarih-i Al-

i Osman" əsərində isə "Sultan Səlim Təbrizə daxil olub əh-li-hirfəttən (yəni sənət əhlindən-E.N.), Təbriz xalqından xeyli insanı İstanbula sür-gün etdi" [3, 137]. Bir başqa mənbə Səlimnamə müəllifi olan Cəlalzadə isə köçür-mə hadisəsini bu cür nəql edir: "Təbriz şəhərindən bir qədər xocalar və ustadlar yazılıb, Rəcəb ayının 23-cü günündə (12 sentyabrda-E.N.) Xorasan şahı Bədi'ü'z-zaman Mirzə ilə Xorasandan gəlmiş erbab-ı hirfəti (peşə sahibləri-E.N.) sürgün edib və üzərinə qullar təyin edilib, səadət arzusu ilə o mahaldan təşrif buyurdular" [5, 250]. Bu sürgün barədə Osmanlı müəlliflərindən Hədidi də məlumat vermiş, o isə hadisəni nəzmlə təsvir edərək köçürülənlərin bir qisminin elm əhli, bir qisminin də iş bilən və iş görənlərdən ibarət olmasını qeyd etmişdir [6, 393]. Bu mənbələrin heç biri köçürülənlərin sayı və tərkibi ilə bağlı təfərrüatlı və dolğun məlumat verə bilmir. Bu barədə məlumatı hicri 921-ci il səfər ayının 7-27/1515-ci ilin 23 mart-12 aprel tarixləri arasında tərtib edilmiş farsca bir dəftərdən əldə edirik. Hüseyin Ars-lan bu dəftərdə bizim üçün faydalı olan hissəni cədvəllər şəklində vermişdir [4, 325 -332]. Bu dəftər sürgün edilənlərin peşəsi, demoqrafik vəziyyəti və kimlərin nəza-rəti altında göndərilmələri barədə məlumat verirdi.1-9-cu cədvəllərdən bunu daha aydın görmək olar.

**Cədvəl 1: Menteşe sancağının mirlivası, timar və ziyamət sahibi Sinan Paşaya təslim edilənlər**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Şeyx Kəbir | - | Şəhər qazısının oğlu və onun xanımı və iki oğlu-Şəmsəddin Məhəmməd və Əbdürrza | 4 |
| 4 | Vələd İbrahim | - | İsmayıl Yarın oğlu | 1 |
| 5 | Mövlanə Nürəddin | Təbib | Ədirnə Darü'ş-şəfasında vəzifə sahibi oldu. | 1 |
| 6 | Sinəm | - | Mövlanə Nürəddinin xanımı | 1 |
| 7 | Dərviş Əli | Kəhhal (göz həkimi) | və xanımı. 1 oğlu-Şah Məhəmməd və 3 qızı-Behicə, Salihə və Ağa Sultan | 6 |
| **Cəmi: 13 nəfər** | | | | |

**Cədvəl 2: Zərgərlər camaatı adı altında qeyd olunan adlar**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Dərviş Əli | Əyyar | M. xanımı, 2 oğlu, 3 qızı | 7 |
| 2 | Şəmsəddin | Əyyar | Xanımı, 2 övladı | 4 |
| 3 | Ayus Qulam | Əyyar şagirdi | Şəmsəddinin şagirdi | 1 |
| 4 | Ustad İsmayıl | - | və 2 qızı | 3 |
| 5 | Cəmaləddin Hüseyn | - | Xanımı, anası və oğlu | 4 |
| 6 | Qasım | - | Qardaşı | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 7 | Xoca Nurullah | - | Xanımı, 1 yeni (doğulmuş) qızı | 3 |
| | | **Cəmi: 23 nəfər** | | |

**Cədvəl 3: Menteşe livasında Baş Araq çayı zaimi (ziyamət rəhbəri-E.N) olan Qara Əliyə təslim edilənlər**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Ustad Mahmud | Guft-ger (?) | xanımı Xanzadə, digər xanımı Xan Sultan. 4 oğlu- Haq Nəzər, Fəzlullah, Xeyrullah, Şəhabəddin və 1 qızı-Şahım Ağa | 8 |
| 7 | Mahmud | Ustad Mahmudun şagirdi | - | 1 |
| 8 | Əhməd | Ustad Mahmudun şagirdi | Xanımı Yeki can və oğlu Sultan Hüseyn | 3 |
| 9 | Ustad Yar Əhməd | Guft-ger | - | 1 |
| 10 | Məhəmməd Can | Guft-ger | Xanımı Tacım Ağa, oğlu Yadigar, Gövhər və Fərah adlı iki qızı | 5 |
| | | **Cəmi: 18 nəfər** | | |

**Cədvəl 4: Çineyə tabe Farqo çayı zaimi İvaz bəy və Kebabe zaimi Çayakoğlu Umur Bəyə təslim edilənlər**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Adı verilməyib | Ustad Həkkak | Xanımı, 2 oğlu-Tahir Mahmud və Əzizverdi. 2 qızı-Nəfisə Xan və Kəmər Xan | 6 |
| 2 | Ustad Huseyn | Həkkak | Xanımı Ağa Sultan, iki oğlu- Hacı Hüseyn və Həsən Əli | 4 |
| 3 | Maqsud Əli | Həkkak | Xanımı Şərif Sultan, 2 oğlu- Məhəmməd Hüseyn və Hüseyn Əli, qızı Xədicə. | 5 |
| 4 | Xoşgələn, digər adı Mövlanə Xoca Məhəmməd | Həkkak | Xanımı Huz Ağa, anası Huz bəy. Qızı Ruqiyyə Amasyada vəfat etdi. | 4 |
| 5 | Hacı Məhəmməd | Həkkak | Xanımı (?) | 2 |
| | | **Cəmi: 21 nəfər** | | |

**Cədvəl 5: Dəftəran və Mazun qəsəbəsi zaimi Mustafa bəyə təslim edilənlər**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Xoca-zadə Əli... | - | Xanımı Sultan Ağa, Hüseyn (?) Mazun qəsəbəsində Orxanlı timarında öldü. | 3 |
| 2 | Səfər Şah | - | Somunç qəsəbəsində (?) öldü | 1 |
| 3 | Fəthi bəy | - | Məzkur Şah Əlinin oğlu | 1 |
| | **Cəmi: 5 nəfər** | | | |

**Cədvəl 6: Uyqartaş zaimi Hacı bəy oğlu Mahmud Çələbiyə təslim edilənlər**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Xoca Pir Əli | Tacir | Xanımı Can Ağa. Oğulları-Şah Məhəmməd, Burc Əli, Müzəffər, Fəthi bəy və Şahbal bəy. | 7 |
| 2 | Əli Diraz | - | Uyqardaş qəryəsi (kəndi-E.N.) timarında öldü. | 1 |
| 3 | Xızır | - | Köyceğiz qəsəbəsi İmir qəryəsi timarında öldü | 1 |
| | **Cəmi: 9 nəfər** | | | |

**Cədvəl 7: Çinə qəsəbəsində panayır (bazar-E.N.) hasili zaimi İlyas Bəy oğlu Yusifə təslim edilənlər**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Şah Hüseyn | Əttar | Xanımı Əziz Paşa, oğulları Qulu bəy və Xoca bəy. Qızının oğlu Şah Mahmud | 5 |
| 2 | Xəlilullah | Habbaz (çörək bişirən) | Xanımı Xatun Paşa, Oğlu Heydər, qızı Əziz Paşa | 4 |
| 3 | ? | ? | Say göstərilsə də boş qoyulub | 1 |
| | **Cəmi: 10 nəfər** | | | |

**Cədvəl 8: Menteşe livasında Tavas zaimi Turqud oğlu Məhəmmədə təslim edilənlər**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Ustad Nizaməddin Əbu İshaq | Əyyar | Xanımı Ladə, qardaşı İbadullah və ailəsi (?). Xanımı Şahım və oğlu Nəsrullah. | 5 |
| 2 | Ustad Nizaməddin | - | Oğlu Bəkir və Otaki (?) Hacı Əli. Xanımı Yeki. Oğulları Mir Xan və Şah Məhəmməd, qızı Gövhər. | 7 |

| | | | | |
|---|---|---|---|---|
| 3 | Məhəmməd Şah | Ustad | Xanımı Paşa. Xanımı Quli. | 3 |
| 4 | Can Məhəmməd | Mücərrəd (subay) | - | 1 |
| 5 | Mübarək Qədər | Mücərrəd (subay) | - | 1 |
| 6 | Boş qoyulub | - | - | - |
| 7 | Heydər Təbrəzi (?) | - | Xanımı Paşa, Oğulları-Hacı Hüseyn Şah Əli və Remayis (?) Əli | 4 |
| 8 | Məhəmməd Əli | - | - | 1 |
| 9 | Kaşani | Mücərrəd (subay) | - | 1 |
| 10 | Mirzəy | Otaki (?) | Xanımı Nikün, oğlu Mirim, qızı Qüreyş. | 4 |
| 11 | Nəcməddin Sarraci | - | Xanımı, Qalmış Hənə. Mahmud Təbrəzi, mücərrəd | 3 |
| 12 | Məhəmməd | Otaki (?) | Xanımı Paşa, oğlu Əhməd, qızı Hitay Can. | 4 |
| 13 | Piri Can | - | Xanımı Kırlar bəyi. İmam qulu, Allah qulu, Şeyx Can, oğulları. Qızı Murad Sultan. | 6 |
| **Cəmi: 40 nəfər** | | | | |

**Cədvəl 9: Balat qəzasında bir kənd zaimi olan Hacı İshaqa təslim edildi deyə qeyd edilmiş olanlar**

| № | Adı | Peşəsi | Şərh | Nəfər sayı |
|---|---|---|---|---|
| 1 | Xoca Hafiz | - | Xanımı Paşa Bəyi, Oğulları-İbadullah və Şəmsüddin. | 4 |
| 2 | Maqsud Əli | - | Xoca Hafizin qardaşı | 1 |
| 3 | Mir Şeyx | Bəzzaz (tacir-E.N.) | Xanımı Kiçi Can, Oğlları-Ulu Bəy və Əxi Bəy. | 4 |
| 4 | Sultan | - | Ulu Bəyin xanımı | 1 |
| 5 | Kiçi Bəy | Bəzzaz | Mücərrəd | 1 |
| 6 | Mustafa Vələd-i Kamal | - | ? Balat qəzasında Bayındır qəryəsi timarında öldü. | 1 |
| 7 | Danyal | - | Balat qəzasında öldü. | 1 |
| 8 | Məhəmməd (?) | - | Balat qəzasında öldü. | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 9 | Məhəmməd | - | Kızılca Hanlı qəryəsi timarında öldü. ?-də. | 1 |
| **Cəmi: 15 nəfər** | | | | |

Sürgünə göndərilənlərin sayı verdiyimiz 1-9-cu cədvəllərə görə 154 nəfər təşkil edir. Onlardan 8 nəfərin ölməsi barədə məlumatı şərh bölməsində verdik. La-kin, sürgün zamanı yolda vəfat edənlər üçün tərtib edilən 10 və 11-ci cədvəllərdəki sayı da nəzərə alsaq cəmi 23 nəfərin vəfat etməsi məlum olur. Bu da köçürülənlə-rin sayının nəinki 1000 nəfər olmadığını, cəmi saylarının 200 nəfərə belə çatmadı-ğını göstərir.

**Cədvəl 10: Yolda vəfat edənlər**

| № | Adı | Öldüyü yer |
|---|---|---|
| 1 | Teymur | Karaköy timarında öldü. |
| 2 | Hüseyn | Gökçə Pınar timarında öldü. |
| 3 | İlyas | Qəryeyi İncuk timarında öldü. |
| 4 | Mahmud | Ovacık timarında öldü. |
| 5 | Məhəmməd | Çat (?) timarında öldü. |
| 6 | Yardım (?) | İymur timarında öldü. |
| 7 | Xızır | Barta timarında öldü. |
| 8 | Məhəmməd | Gökçə Pınar timarında öldü. |
| 9 | - (?) | Gökçə Pınar timarında öldü. |
| **Cəmi: 9 nəfər** | | |

**Cədvəl 11: Vəfat edən sürgünlər camaatı**

| № | Adı | Vəzifəsi |
|---|---|---|
| 1 | Şah Məhəmməd | Kabbal (?) |
| 2 | Məsud Əli | Həkkak |
| 3 | Hacı Məhəmməd | Həkkak |
| 4 | Şeyxi | Abai-baf (Əba-parça toxuyan) |
| 5 | Yaqub | Şəmşirkar (Qılınc düzəldən) |
| **Cəmi: 5 nəfər** | | |

Sürgünə göndərilən Təbriz sənətkarları və adlı sanlı simaları içərisində ulufə alan və almayan insanlar vardı. Ulufə Osmanlı imperiyasında Qapıqulu Ocağı əs-gərlərinə, Yeniçərilərə, Əcəmi Ocağı mənsublarına, bəzi saray və dövlət adamları-na 3 aydan bir verilən maaşdır. Hüseyin Arslan dəftərə istinadən Ulufə alanların 92, ulufə almayanlar isə 35 nəfər təşkil etdiyini yazır və onların adlarını sadalayır. Ulufə alanlar içərisində Kamança ifaçısı, ustadlar naziri, ip əyirən, katib, kubəndə (çul düzəldən), tai (?), nəqqaş, zər-tai (?), çəltuki (çəltikçi), zərgər, guftgər(?), hək-kak, kənar-baf, simkeş (gümüş üzərində işləyən), qəzzaz (ipəkçi), şəmşirkar (qılınc düzəldən), çilingər, zərdüz (qızıl üzərində işləyən), poladkar (dəmirçi), abai-baf (Əba tikən), kəhhal (göz həkimi), xəyyat (dərzi), basmagər (basmaçı), sərracikər (yəhər düzəldən) və başqa peşə sahibləri vardı. Peşələrindən göründüyü kimi əsa-sən gəliri nisbətən aşağı olan nəfərlərə ulufə ayrılırdı. Ulufə almayanlar isə daha çox sərvət sahibi olan tacirlər idi [4, 325-333].

Ümumiyyətlə Təbriz sürgünləri ilə bağlı aşağıdakı nəticələrə gəlmək olar:

– Sürgün edilənlər əsasən elm, sənət və sərvət sahibi nəfərlərdən və vəzifə sa-hiblərindən seçilmişdir.

- Ulufə alanlar nisbətən az gəlirli insanlar, almayanlar isə daha çox sərvət sa-hibi olanlar, xüsusilə də tacirlər idi.
- Əgər adlara nəzərən qərar verəsi olsaq hər hansı bir məzhəb ayrı-seçkiliyi aparılmadığını görərik.
- Adlar əsasən müsəlmanlar arasında işlək adlar olduğunu görə köçürülənlərin etnik tərkibini müəyyən etmək mümkün deyil.
- Təbrizdən İstanbula 1000 nəfər yox, təxminən 154 nəfər insan köçürülmüş-dür ki, onun da 23-ü yolda vəfat etmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Bakı: Elm, 1982, 280 s.
2. Şərafəddin Əli Yəzdi. Zəfərnamə. Bakı: Azərnəşr, 1996, 80 s.
3. Anonim Tevarih-i Al-i Osman. F. Giese neşri. Hazırlayan Nihat Azamat. İs-tanbul: Edebiyyat Fakültesi Basımevi, 1992, 171 s.
4. Arslan H. 16 yy. Osmanlı toplumunda yönetim, nüfus, iskan, göç ve sürgün. İstanbul: Kaknüs yayınları, 2001, 431 s.
5. Celal-zade Mustafa.Selim-name. Hazırlayanlar: Pof. Dr. Ahmet Uğur- Ögrt. Gör. Dr. Mustafa Çuhadar. İstanbul: Milli Eğitim Bakanlığı yayınları, 1997, 706 s.
6. Hadidi. Tevarih-i Al-i Osman (1299-1523). Hazırlayan Yrd. Doç. Dr. Nec-det Öztürk. İstanbul: Edebiyyat Fakültesi Basım evi, 1991, 487 s.
7. Haydar Çelebi Ruznamesi. Baskıya hazırlayan: Yavuz Senemoğlu. İstanbul: 1001 tercuman temel eseri, 1976, 221 s.
8. Hoca Sadettin Efendi. Tacü't-tevarih. 5 ciltte. 4-cü cilt. Hazırlayan İsmet Parmaksızoğlu. Ankara: Kültür Bakanlığı, 1979, 408 s.

**ЭЛЬНУР НАДЖИЕВ**
***Докторант Института Истории им. А.А.Бакиханова НАНА***

## ТЕБРИЗСКИЕ ИЗГНАНИЕ 1514 ГОДА

В статье проанализированы различные источники, в которых имеются сведения об изгнание тебризских ремесленников из Тебриза в Стамбул. От-метим что, после поражения Сефевидов в Чалдыранской битве в 1514 году Султан Селим I увел с собой в Стамбул от нескольких сот до нескольких тысяч лучших ремесленников и мастеров вместе с их семьями.

Tarix və onun problemləri, № 4 2015

**ELNUR NAJIYEV**
***The doctorant of the İnstitute of history named after A.A.Bakixanov in ANAS***

## TABRIZ EXILES OF 1514

In the article analysed various sources having information about the exiles of Tabriz artisans to Istanbul. It will be observed that, after the defeat of the Safa-vids at the battle of Chaldiran in 1514, Sultan Salim I took back with him from several hundred to several thousand of the best artisans and craftsmen from Tabriz to Istanbul.

***Rəyçilər: t.ü.f.d. Səidə Əliqızı, t.e.d. A.İskəndərov***
***BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının 31 oktyabr 2015-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülüb (protokol №03).***